**UOT 1(091)**

# CƏFƏR CABBARLININ İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ VƏ TÜRKÇÜLÜK/AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİ

**Faiq Ələkbərli**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
faikalekperov@mail.ru
https://orcid.org/0000-0002-8865-568X
DOİ: 10.30546/sw.2022.2.39.53

**Xülasə.** Məqalədə Azərbaycan Türk mütəfəkkiri Cəfər Cabbarlının dünyagörüşündə maarifçilik, türkçülük/azərbaycançılıq, islamçılıq, çağdaşlıq, sovet beynəlmiləlçiliyi məsələlərindən bəhs olunur. Burada ilk növbədə, C.Cabbarlının ictimai-siyasi görüşləri ilə bağlı islamçılıq və türkçülük/azərbaycançılıq məsələləri şərh olunmuşdur. İlk dövrlərdə daha çox milli maarifçiliklə məşğul olan Cabbarlı üçün islamlıqla millətin tərəqqisi eyni anlamı ifadə etmişdir. Cabbarlının ictimai-siyasi görüşlərində türkçülük/azərbaycançılıq fəlsəfəsi, türk dünyagörüşünün tədqiqi əsas istiqamətlərdən biri olmuşdur. O, gənc yaşlarından İslam dinində islahatların aparılması ilə yanaşı, türk xalqlarının, o cümlədən Qafqaz türklərinin milli özünüdərk məsələsini vacib hesab etmişdir. Cabbarlı çox böyük ustalıqla vurğulayırdı ki, əgər bir millət zülmlə yaşamağa razıdırsa, üstəlik ona əcdadlarından qalmış milli-mənəvi dəyərləri tərəqqi deyil, tənəzzül kimi başa düşürsə, həmin millətin gələcəyi ola bilməz. Bu mənada, türk millətinin borcudur ki, milli dəyərlərinə sahib çıxsın və onu gənclərə doğru formada çatdırsın. Bizcə, bu baxımdan Cəfər Cabbarlı əsərlərində türkçülüyü/azərbaycançılığı dar mənada deyil, geniş anlamda fəlsəfi-ideoloji dünyagörüş kimi də ortaya qoymağa çalışmışdır. Ümumiyyətlə, onun dünyagörüşü uzun müddət islamlıq və türklüyün/azərbaycanlılığın vəhdəti şəklində təzahür etmişdir. Hətta, bir müddət əsas ideal kimi Azərbaycan Türk dünyagörüşünə, turançılığa əsaslanan Cabbarlı insan və cəmiyyət problemlərinə yanaşmada da, daha çox türk fəlsəfəsindən, müəyyən qədər də islamlıq dünyagörüşündən çıxış etmişdir. Bizcə, 27 aprel sovet işğalından sonrakı ilk illərdə də, Cabbarlı türk-İslam dünyagörüşündən geri çəkilməmiş, mümkün olduğu qədər onu “sovet beynəlmiləlçiliyi” ilə uzlaşdırmağa çalışmışdır. Cabbarlının əsərlərində yalnız formaca deyil, məzmunca da türklük xüsusiyyətlərinin önə çəkilməsi sovet-rus bolşevikləri tərəfindən birmənalı qarşılanmırdı. Sovet ideoloqları, digər milli aydınlarımız kimi, onu da mahiyyətcə sosializmə uyğun əsərlər yazmağa məcbur edirdilər.

**Məqsəd** – Cəfər Cabbarlının dini-fəlsəfi, utopik görüşləri və türkçülük, turançılıq ideyalarını təhlil etmək.

**Metodologiya** – müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi, analiz.

**Elmi yenilik** – Cəfər Cabbarlının ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

**Açar sözlər:** İslamlıq, türkçülük, azərbaycançılıq, turançılıq, çağdaşlıq, sovet beynəlmiləlçiliyi

## Giriş/ İntroduction

Cəfər Cabbarlı (1897/99-1934) Xızıda anadan olmuş, 1905-1908-ci illərdə Bakıda 7-ci rus-tatar məktəbində, 1909-1915-ci illərdə isə Alekseyev adına 3-cü ali-ibtidai məktəbdə təhsil almışdır. On iki yaşından, yəni 1911-ci ildən etibarən mətbuatda çıxış etməyə başlayan Cabbarlı 1915-ci ildə Bakı Sənaye Məktəbinin elektromexanika şöbəsinə daxil olmuşdur[1, s.11]. Abdulla Şaiq xatirələrində yazırdı ki, Cəfər Cabbarlını hələ kiçik ikən, Bakının yeddinci şəhər məktəbində oxuduğu zamandan tanıyıb: “O mənim ən çox sevdiyim şagirdlərimdən idi. O, ilk şerini çox zaman hamıdan əvvəl mənə oxuyar, mənim göstərişlərim əsasında işləyərdi. Onda möhkəm iradə və nikbinlik vardı. Heç bir müvəffəqiyyətsizlik onu ruhdan salmaz, əksinə, şeirlərinin üzərində daha səylə çalışmasına səbəb olardı. Məsləhət və göstərişləri o, çox asanlıqla qavrayar və əməl edərdi. Ehtimal ki, Cəfərin ilk şeirlərinin əksəriyyəti çap olunmamışdır” [2, s.286-287].

Cümhuriyyət dövründə Cabbarlı “Azərbaycan” qəzetində tərcüməçilik fəaliyyəti ilə yanaşı, Parlament aparatında stenoqrafiyaçılıq etmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Cabbarlı gizli fəaliyyətə keçən Müsavat Partiyasının MK-nın baş katibi seçilmişdi. Həmin il Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olan Cabbarlı “Kommunist” qəzetində və Ərzaq Komissarlığında tərcüməçi, Azərbaycan SSR MİK-də stenoqrafiyaçı işləmişdir. 1923-cü ilin iyun ayının 16-da C.Cabbarlı Seyid Hüseynlə birlikdə həbs edilmişdi. Həmin vaxt Cəfər ilə qonşu kamerada yatan Əbdülvahab Məmmədzadə sonralar yazırdı: “Cəfərin 1923-cü il 15 iyununda Sovet “Çeka”sı tərəfindən yapılan ilk həbsində bir çox əlyazmalarıyla birlikdə “Qız qalası” müsəddəsi də ələ keçmiş və qeyb olmuşdu. Şair, 1923-cü ilin 5 oktyabrında təkrar həbs edildikdən sonra münfərid hücrəsində təkbaşına oturarkən, əlinə keçirdiyi ufacıq bir qurşun qələmiylə mənzuməni yenidən irşad etməyə başlamışdı” [3, s.6].

1923-cü ilin avqustunda “Müsavat”ın özünü buraxması barədə bolşeviklər tərəfindən yazılıb müsavatçıların adından yayınlanan bəyanatdan sonra Cabbarlı və digər müsavatçılar həbsdən azad olunmuşlar. Bu hadisədən sonra Bakı Dövlət Universitetindən xaric olunan Cabbarlı 1923-cü ilin sentyabrında Türk Teatro Məktəbinə daxil olunmuşdur. Ancaq yaxın silahdaşı M.B.Məhəmmədzadənin Bakıdan qaçması və gizli “İstiqlal” qəzeti mətbəəsinin aşkar edilməsindən dolayı 1923-cü ilin oktyabrın 5-də Cabbarlı yenidən həbs olunmuşdur. Ancaq çox keçmədən Cabbarlı oktyabrın 30-da həbsxanadan azadlığa buraxılmış və bundan sonra daha çox tərcüməçiliklə məşğul olmuş, bir sıra yeni əsərlər yazmışdır. O, 1934-cü ildə Bakıda vəfat etmişdir [4, s.9].

Onun əsas əsərləri aşağıdakılardır: “Qız qalası”, “Ədirnə fəthi”, “Od gəlini”, “Nəsrəddin şah”, “Ulduz”, “Aydın”, “Yaşar”, “Sevil”, Almaz”, “1905-ci ildə” və b.

**Əsas hissə / Main Part**

**İctimai-siyasi görüşləri**

İlk dövrlərdə daha çox milli maarifçiliklə məşğul olan Cabbarlı üçün islamlıqla millətin tərəqqisi eyni anlamı ifadə etmişdir. Bu mənada, əgər İslam dünyası tənəzzül içindədirsə, eyni sözləri türk aləminə də aid etmək lazımdır. Mütəfəkkir bu baxımdan yazırdı ki, türk-İslam aləminin bir tərəfində eyş-işrət hökm sürdüyü zaman, digər tərəfində müsəlmanların fəryadı ərşə ucalırsa, buna biganə qalmaq mümkün deyildir. Çünki nə türk millətinin əxlaqında, adət-ənənələrində, nə də İslamın qayda-qanunlarında bu cür biganəlik olmamışdır. Cabbarlı yazırdı:

*Bular deyilmi bəşər, ya deyilmi bir islam?!*
*Ürəyimiz, ah, nasıl parçalanmayır da tamam?*
*O vəhşi dalğaların ortasında dindaşımız,*
*Zəlalət içrə ölür ac, zəlil qardaşımız!...*
*Biz isə eyd eyləyib, işrətə qiyam edərik,*
*Bütün-bütün gecəni eyşlə tamam edərik.*
*Göz aç, sən ey özünə söyləyən müsəlmanəm!*
*Göz aç, sən ey bağıran mən də əhli-Quranəm!*
*Göz aç, sən ey danışan həşrdən-qiyamətdən!*
*Göz aç, sən ey əbədi dəm vuran səxavətdən!* [5, s.60].

Cabbarlı doğru yazırdı ki, əsl müsəlman, Quranda da buyurulduğu kimi, “müsəlmanlar qardaşdırlar” prinsipinə əməl edərək din qardaşına əl tutan, onun imdadına yetən və ona dayaq duran kəsdir. Yoxsa, adı müsəlman olub, ancaq dindaşlarına heç bir yardımı dəyməyən, əksinə, başqa dinə etiqad edənlərin (ingilislərin, fransızların və b.) yanında İslama xələl gətirənlər saxta müsəlmandırlar. Bu cür saxta müsəlmanların əməlləri də şəriətə tamamilə ziddir. Bu baxımdan Cabbarlı hesab edirdi ki, indi əsl möminlə saxta möminin aşkarlanması mənasında imtahan zamanıdır:

*Xaneyi-millət xarab olmaqda, imdad istəyir.*
*Ey ucaldan təqi-ərşə fəxr ilə kaşanələr!*
*Nerdədir “əl mömininə ixvətin” ayatı bəs?*
*Ey özün islamə daxil eyləyən biganələr!*
*Ey özün mömin bilənlər, imtəhan meydanıdır,*
*Qəlbiniz amalını etsin sübut amalınızı* [5, s.58].

Cabbarlı yazırdı ki, Allahın müqəddəs kitabı Qurani-Kərim də, onun ilk təbliğatçısı Məhəmməd peyğəmbər də zülmə qarşı olmuş, ədalətliliyi və bərabərliyi müdafiə etmişdir:

*Bu zəlalət ərsəsində cismi-millət bisipər,*
*Tiqi-cəladdi-əcəl rədi-sima tək rəşədar.*
*Zülm ilə pamal olur millət, siz eyd etməkdəsiz.*
*Hökmi-Quran böylədirmi, söylə, ey biəğniya?* [5, s.58].

Ümumiyyətlə, Azərbaycan Türk aydınına görə, əsas problem əhalinin əksəriyyətinin cahil və avam olması deyil, onun “intelligent”, üləma adlanan qisminin nə millətinin adət-ənənələrindən, nə də şəriət qanunlarından doğru-dürüst xəbərlərinin olmamasıdır. Çünki müsəlmanların avam və cahil qismi elm və bilikdən uzaq olsalar da, heç olmazsa milli və dini dəyərlərə sadiqdirlər. Doğrudur, onların milli və dini dəyərlərə sadiqliyi kor-koranə xarakter daşıyır, ancaq yenə də onlar İslam qayda-qanunlarına hörmətlə yanaşır, digər xoşagəlməz əməllərlə məşğul olmurlar. Lakin bunu “intelligentlər”, ülәmalar haqqında demək mümkün deyildir. Cabbarlı yazırdı:

*Alim olubdu bəzisi, yasin oxur babasına,*
*Külçə görən kimi alıb, tez bürüyür əbasına,*
*Bir baxınız bu yazığın başda olan havasına,*
*Mülki-cahanı tullayıb, özgə diyarı gözləyir,*
*Bağı-behişti istəyib, çeşmi-xumarı gözləyir* [5, s.80].

Deməli, müsəlmanın hər təhsil alanı sözün əsil mənasında, millətə və dinə xidmət yolunu seçmir. Hətta onlardan elələri tapılır ki, aldıqları biliyi və təhsili millətin, İslamın tərəqqisinə deyil, şəxsi maraqları naminə xalqın zərərinə istifadə edirlər. Bunu dərindən anlayan Cabbarlı hesab edirdi ki, həmin “intelligentlər” milləti qəflət yuxusundan oyatmaq əvəzinə, bir aciz müsəlman görən kimi onu bizləməklə məşğul olurlar. Bu işdə isə onlara yalançı ruhanilər, din xadimləri yoldaşlıq edirlər. Çünki İslamın adından çıxış edən bir çox “din xadimləri” xalqın oyanmamasında, cahil və avam qalmasında “intelligentlər”dən daha çox maraqlıdırlar:

*Salma səs, xalqı oyatma, iş düşər çox əngələ,*
*Bərk yatıb islam, oyanmaz yerlər etsə zəlzələ.*
*Layla çal qoy bir bir qədər yatsın, uşaqdır çün hələ,*
*Böylə dövran lap qiyamət qopsa da düşməz ələ.*
*Gündə on beş yerdə ehsan, mən bilim qoy, bir də sən,*
*Layla çal, yatsın müsəlman, mən bilim qoy, bir də sən* [5, s.100].

Həmin dövrdə iş-gücləri müsəlmanlara yalnız dini mövhumat və xurafatı təbliğ edən mollaları və axundları tənqid edən Cabbarlı yazırdı ki, yalançı şəriət qanunları, hədislərlə İslam dünyasının oyanması mümkün deyildir. O yazırdı:

*Aləmi-islamə bax! Bir yanda işrət bərqərar,*
*Bir tərəf fəryadə guş et, gör qurulmuş matəmi* [5, s.57].

Onun fikrincə, nə vaxta qədər ki, İslamın qayda-qanunlarını əsl elm adamları müsəlmanlara öyrətməyəcəklər türk-İslam dünyasındakı tənəzzül davam edəcək, Quran yalnız müqəddəs bir kitab kimi evlərimizdə toz basmış halda qalacaqdır. O, yazırdı:

*Söylə mövhumatı, Adəmdən tutub bu əsrədək,*
*Vaxtımız çoxdur hədisbazlıqdan ötrü həsr edək.*
*Xəlqin əqlini çaşdıraq, vardırsa bir az, kəsr edək.*
*Döndərib bu sayədə köhnə komanı qəsr edək.*
*Toz tutarsa evdə Quran, mən bilim qoy, bir də sən.*
*Layla çal, yatsın müsəlman, mən bilim qoy, bir də sən* [5, s.100].

Deməli, yalançı ruhanilərin məqsədi heç də xalqı oyatmaq deyil, əksinə, qəflət yuxusunda saxlamaqdır. Bunun nəticəsidir ki, məscid deyiləndə Allahın evi deyil, yalançı axundların və mollaların qazanc yeri başa düşülür. Ona görə də müsəlmanların çoxu artıq məscidlərə getmək belə istəmir, bununla da Allahın evləri boş qalır və qapısından qıfıllar asılır. Cabbarlı yazırdı: “Bən öylə bilirdim: orucluq ayı, ehya günü, günorta vəqti, böylə bir gündə məscid açılmamış, nə vəxt açılacaqdır? Müxtəsər, gəlib məscid həyətinə daxil oldum. Hər nə qədər axtardımsa, bir damcı su tapmadım, öz-özümə dedim: yəqin hər kəs öz evində dəstamaz alıb gəlir. Məscidə tərəf baxıb gördüm: Paho… məscid

bağlı! Qapısında da bir dənə zorba, paslı qıfıl var!” [5, s.94]. Çünki yalançı mollaları, axundları maraqlandıran Allah evinin boş qalıb-qalmaması deyil, öz şəxsi mənafeləridir. Onlar öz maraqları üçün min dona girməyə, min fitnə törətməyə, min hiylə qurmağa, bir sözlə istənilən yolla qardaş adlandırdıqları müsəlman dindaşlarını soymağa hazırdırlar:

*İç gündə şərabı, gələ ta cisminə bir can;*
*Vur gündə qumarı, boşala kisəvü həmyan.*
*İxvanını aldat, pulunu al, qoy ol giryan;*
*Bidətlərini axıra vur, olma peşiman,*
*İslamı dağıt, ol yenə də pak müsəlman.*
*Qoy başına əmmamə, gedib Molla Cavad ol!*
*Şad ol, yenə şad dol, yenə şad dol, yenə şad dol!*
*Eyvah ki, axırda peşiman olacaqsan!* [5, s.108].

Bütün bunlardan sonra Cəfər bəy yenə də ümid edirdi ki, İslam dünyası yuxudan oyanacaq və işıqlı günlərə qovuşacaqdır. Başqa sözlə, İslam millətləri, müsəlmanlar aralarındakı ədavət daşlarını tullayıb, məzhəb ayrılıqlarına son verib bir-birlərinə sözün həqiqi mənasında qardaş olacaqlar. Əks təqdirdə, Cabbarlını təbirincə desək, çox keçməz İslam millətləri tamamilə xar olar və başqa dinə qulluq edən millətlərin əsarəti altına düşərlər:

*Qıl nəzər ətrafa, görərsən o dəm:*
*Milləti-islam qoyun tək yatıb;*
*Qarətü qətlə verib öz fikrini,*
*Qeyrəti namusu kökündən atıb,*
*İrzü həyavü ədəbin cümləsin*
*Cifeyi dünyayə satıbdır, satıb.*
*Böylə keçərsə əgər on səkkiz il,*
*Millətimiz xar olacaq, yoxsa yox?*
*Bu yuxudan, bilmirəm, islamiyan*
*Bir kərə bidar olacaq, yoxsa yox?* [5, s.107].

Əslində, Cabbarlının bir əsr öncə islam millətlərinin sosial-siyasi və mədəni vəziyyəti ilə bağlı dedikləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Doğrudur, XX əsrin əvvəllərində baş verənlərlə müqayisədə bu gün İslam dünyasında müəyyən bir irəliləyiş vardır, ancaq bu yetərli səviyyədə deyildir. Belə ki, müasir dövrdə də bir çox yeniliklərin müəllifi islam dünyası deyil, daha çox Avropa və Uzaq Şərq ölkələridir. Üstəlik dünyada baş verən dəyişikliklərdən son xəbər tutan, yaxud da bu dəyişikliklərə axırıncı uyğunlaşmaq istəyən İslam dünyasıdır. Çünki İslam dünyası özü bir elm beşiyi olduğu halda, elmdən və təhsildən, hürriyyət və azadlıqlardan uzaq qalmışdır. Cabbarlının təbirincə desək, qeyri millətlər elmə könül verdikləri halda, müsəlmanlar hələ də “mürgüləyir”:

*Tapdı səadət yolunu qeyrilər*
*Elmə könül vermək ilə hər zaman.*
*Leyk müsəlman hələ də mürgülər.*
*Durmağa da zərrəcə yoxdur güman.*
*Rəmlə baxanda belə məlum olur:*
*Çox yatacaqdır hələ islamiyan.*
*Sonra ayıldıqda, bunu bilmirəm*
*Laiyqi-kandar olacaq, yoxsa yox?*
*Bu yuxudan, milləti-islamiyan*
*Bir kərə bidar olacaq, yoxsa yox?* [5, s.108].

Akademik Yaşar Qarayev “Klassik sosialist realizmi – Cəfər Cabbarlı” məqaləsində yazırdı: “...Cabbarlının məfkurə və sənət taleyi ilk dəfə deyil ki, belə tarixi imtahan, əxlaqi sınaq qarşısında qalır. Onun bu sınaqdan tamam zədəsiz və yan keçəcəyini iddia etmək qeyri-səmimilik olardı. Ancaq bir şeyə qəti və tərəddüdsüz hökm vermək olar: Cabbarlı hətta vulqar empirizmin, nadan sxolastikanın, ədəbi irticanın, siyasi ehkamın və inzibati terrorun sınağından salamat çıxıb, aşkarlığın və yeni təfəkkürün sınağından çıxmaq onun üçün qat-qat asan olacaqdır!” [6, s.397].

Cabbarlı “Vəfali Səriyyə” pyesində də müsəlman xalqlarının geriliyinin əsas səbəbkarı kimi cəhaləti görmüş və bu cəhalətə görə də ruhaniləri tənqid etmişdir. Cabbarlı Məhərrəm adlı obrazın dilindən yazırdı: “Ah! Cəhalət! Cəhalət! Səndən daha nələr gözləmək olmaz! Əcəba, dünya üzündə bircə müsəlmanlardan ötrü yaranmışdın? Zalım! Napak! Bunlar hamısı sənin təsirindir ki, insaf, mürüvvət, vicdan, hamısı unudulmuş!!! Bunlar hamısı sənin təsirindir ki, Quran, kitab, şəriət, hamısı yaddan çıxmış!!! Bunlar hamısı sənin təsirindir ki, Allah, peyğəmbər, imam, din, məzhəb, hamısı bir kənara atılmış!!! Ah, biçarə müsəlmanlar!” [7, s.12]. Cabbarlıya görə, bu cür cəhalətə çarə bulmağın yollarından biri Quranın türk dilinə tərcümə edilib, müsəlman türklərinin öz ana dillərində onunla tanış olmalarıdır [7, s.20-21].

Cabbarlı “Nəsrəddin şah” pyesində də əsas diqqəti İslamın qayda-qanunlarına əməl olunmamasına, ruhanilərin və məmurların din pərdəsi altında zülmkarlığına yönəltmişdir. “Ey adları müsəlman olub, özləri insaniyyətdən bixəbər olan canavarlar” deyən [7, s.72], Cabbarlı hesab edirdi ki, Qacarlar dövlətinin cəhalət içində olmasının, burada özbaşınalığın hökm sürməsinin əsas günahkarı da ittifaq içində olan mollalarla despotik məmurlardırlar. O yazırdı: “Əvvəllər şah özü məmləkəti nizama salmaq istəyirdi. Amma onu əhatə edən hiyləgər ümərayi-dövlət, vəzirlər və ruhanilər onu bu işdən mən etdilər. Bəli, İranda (Qacarlar dövlətində- F.Ə.) yaxşı vəzirlər, yaxşı hakimlər var idi ki, millət üçün ürəkləri yanırdı. Mirzə Təqi xan, Mirzə ağayi Nuri və qeyrə, amma onlar çox yaşaya bilməyib, dövlətin xainanə hiylə və fəsadlarına fəda olub, getdilər” [7, s.86].

Vaxtilə Mirzə Təqi xan Qacarlar dövlətinin sədr-əzəmi olanda (1848-1851) bir sıra islahatlar aparıb, Məşvərət Şurası yaratmışdı ki, bu da ruhaniləri və onunla ittifaqda olan xanları narahat etmişdi. Ruhanilər dini hakimiyyəti, xanlar isə yarımmüstəqil hakimiyyətlərini əldə saxlamaq üçün birləşib Mirzə Təqi xanın vəzifədən getməsinə və öldürülməsinə səbəb olmuşdular. Cabbarlı Mirzə Təqi xanın dilindən yazırdı: “Şah təxti-hökmraniyə cülus edib, məni özünə sədri-əzəm qərar verib, Əmir Nizam ləqəbilə müləqqəb etdi. Mən bir ləqəb ilə kifayət etməyib, vəizfəmin nə olduğunu düşünərək xarabazara və xarici dövlətlər arasında, etibarını itirmiş İran məmləkətini dübarə islah etməyə çalışdım. Boş qalmış xəzinəni doldurdum, qoşunları müntəzəm bir halə gətirdim, cəhalət və nadanlıqdan inqrazə üz tutmuş İran camaatini elmə tərğib və sənətə təşviq etdim ki, bəlkə kürreyi-ərzin hər guşəsinə yayılan İran saillərin insan adını daşımağa şayan etdim. Mən bu fikrimə qismən müvəffəq oldumsa da, İranın əksərini təşkil edən yalançı ruhanilər nəinki mənə kömək etmədilər, hətta hər qədəmdə, üçillik əyyami-sədarətimdə mənə bir mane təşkil etdilər. Ələlxüsus, İranı talan və qarət etməklə, məmləkətin cəngavər balalarını xarü-zəlil edib, İran xanları mənim fikirlərimə bir polad sədd kimi müqabilə etdilər. Şah zəif, cavan və təcrübəsiz olduğu üçün, onu əhatə edən paxıl, tamahkar və hiyləgər, məmləkəti fəlakətə tərəf sürükləyən vəzir və dövlət ərkanının sözlərinə baxmaqdan özünü saxlamayır. Onlar hamısı xüsusi mənfəətləri üçün çalışdığı halda, şah onlara mane ola bilmiyor. Mən də bir, tək – bu qədər vicdansızlarla mübarizə etmək məcburiyyətində qaldım. Mən bir dəfə düşünmüşəm ki, nə qədər İranda bu zalım xanlar hökm sürürlər, İran tərəqqi edə bilməz. Ona görə də mən nə qədər ki, sədarətdə varam, bu xanlıq tərzini İrandan götürməyə çalışacağam və bununla da məmləkəti zülmdən qurtarmağıma ümidvaram” [7, s.88].

Deməli, Mirzə Təqi xan qarşısına məqsəd kimi, birincisi, xanların yarımmüstəqilliyinə son qoymaq, ikincisi, ruhanilərin nüfuzunu aşağı salmaq, üçüncüsü, hər vilayətdən millət nümayəndələri çağırmaq kimi mühüm məsələlər qoymuşdur. Cabbarlı təəssüf edir ki, Nəsrəddin şah onun bu islahatlarına əvvəlcə dəstək versə də, ancaq sonunda xain ruhanilərə və xanlara inanaraq Mirzə Təqi xanı vəzifəsindən uzaqlaşdırıb ölmünə qərar vermişdir [7, s.97].

Cabbarlı yazırdı ki, Mirzə Təqi xanın ölümündən təqribən 10 ildən sonra (1860-cı illər) sədir-əzəm olan Mirzə Ağa xan Nuri də Qacarlar dövlətində bir sıra islahatlar aparıb ciddi uğurlar əldə etmişdir. Ancaq Mirzə Təqi xanda olduğu kimi, Nəsrəddin şah ikinci dəfə də həm qəflətə qapılaraq, həm də xain ruhanilərin oyunları nəticəsində onu da vəzifəsindən uzaqlaşdırmış, ümumiyyətlə, bir müddət sədarəti də ləğv etmişdir [7, s.99].

Üçüncü dəfə isə, Nəsrəddin şahı dövlətdə islahatlar aparması üçün yola gətirmək istəyən Cəmaləddin Əfqani olmuşdur. Cabbarlı Əfqaninin dilindən millətə məşrutə verilməsinin, millətin azadlığa çıxmasının zərurətindən bəhs etmişdir. Bütün İslam aləminin fəlakət, uçurum qarşısında olduğu, Avropa dövlətlərinin müsəlman xalqlarına qənim kəsildiyi bir dövrdə başqa çarənin

olmamasını Əfqaninin dilindən Cabbarlı belə yazırdı: “Kənar edin, hökumət başında oturan müftəxor vəzirləri, çağırın millətin nümayəndələrini. Onlar öz fəqir qardaşlarının halını yaxşı bilirlər. Onlar çalışıb məktəblər, mədrəsələr və darülfünunlar açarlar. Onlar çalışıb sənətxanalar, rəsədxanalar, növbənöv darülfənlər açarlar. Azad nəfəs çəkən millət açıq fikir ilə çalışıb fənlər təhsil edər, hürr olan bir millət həmişə ucalar. Millət yerin üzərində fabriklər, növbənöv karxanalar açmaqla kifayət etməyərək, yerlərin altında olan mədəniyyətə də əl atıb, səhneyi-həyata çıxarıb millətə təqdim edərlər. Bütün İslam məmləkətləri belə edərsə İslam dirilər” [7, s.100]. Ancaq Nəsrəddin şah bu dəfə də sözünə əməl etməmiş və Əfqani Qacarları tərk etmək məcburiyyətində qalmışdı. Cabbarlıya görə məhz bundan sonra başda C.Əfqani olmaqla bir qrup məşrutəçi tərəfdarı Nəsrəddin şahın qətl edilməsi qərarına gəlinmiş və bu sui-qəsd Mirzə Rza Kirmani tərəfindən həyata keçirilmişdir [7, s.121-122].

**Türkçülük azərbaycançılıq fəlsəfəsi**

Cabbarlının ictimai-siyasi görüşlərində türkçülük fəlsəfəsi, türk dünyagörüşünün tədqiqi əsas istiqamətlərdən biri olmuşdur. O, gənc yaşlarından İslam dinində islahatların aparılması ilə yanaşı, türk xalqlarının, o cümlədən Qafqaz türklərinin milli özünüdərk məsələsini vacib hesab etmişdir. Cabbarlı çox böyük ustalıqla vurğulayırdı ki, əgər bir millət zülmlə yaşamağa razıdırsa, üstəlik ona əcdadlarından qalmış milli-mənəvi dəyərləri tərəqqi deyil, tənəzzül kimi başa düşürsə, həmin millətin gələcəyi ola bilməz. Bu mənada, türk millətinin borcudur ki, milli dəyərlərinə sahib çıxsın və onu gənclərə doğru formada çatdırsın.

Bizcə, bu baxımdan Cəfər Cabbarlı əsərlərində türkçülüyü ancaq bir milliyyətçilik kimi deyil, eyni zamanda qədim bir fəlsəfə və dünyagörüşü kimi də ortaya qoymağa çalışmışdır.

Məsələn, o, “Ədirnə fəthi” pyesində Rüfət adlı obrazın dilindən yazırdı ki, türklər hər bir fəlakəti səbrlə, təmkinlə qarşılayan, ancaq düşmənə də layiqli cavab verə biləcək bir millətdir: “Zöhrə, bu gün bütün türklərin namusu və heysiyyətini ayaqlar altına almaq istəyən canavarlara qarşı mübarizə etməyi, bütün türk dünyası səndən tələb edir. Vətən uğrunda ölüm olmasaydı, yüksək dağlar, dərin dərələr bizi bir-birimizdən ayıramazdı. Fəqət böylə bir gündə ki, bütün türklərin müqəddəratı həll olunacaq, damarlarında türk, İslam qanı fırlanan bir osmanlı sakit duramaz” [7, s.161]. Şübhəsiz, burada ifadə edilən “türk və İslam qanı” türkün yaşam fəlsəfəsini də özündə ehtiva edir. Cabbarlı çox doğru qeyd edirdi ki, türkün fəlsəfəsində qorxu deyilən, məğlubiyyət deyilən anlayışlar qəbul edilməzdir. O yazırdı: “Türklər bundan daha artıq, daha ağır fəlakətləri görə bilərlər, türklər bundan daha dərin uçurumlara düşə bilərlər. Türklər daha güclü düşmənlərə təsadüf edər, əzilə bilər, döyülə bilər. Fəqət türk millətinin ürəyində oyanmış bugünkü intibah, onu qiyamətə qədər yaşadacaq” [7, s.170]. Cabbarlı türklük fəlsəfəsini, türklük idealını çox dəqiq izah edirdi: “Ya şərəfli bir ölüm və ya dəyərli bir həyat” [7, s.170]. O deyirdi ki, türklük qürurunu heç bir qüvvə tapdalamağı bacarmamışdır və indi də bunu bacarmayacaqdır. Çünki artıq türk millətində yenidən intibah baş qaldırmışdır və bu intibahla da dünyada özünün əvvəvlki əzəmətinə qayıdacaqdır [7, s.193]. Cabbarlı “Ulduz” pyesində də türklük fəlsəfəsinin ruhuna uyğun olaraq çox doğru yazırdı ki, Avropa, mədəniyyəti ilə öyüdüyü halda, türklər isə insanlığı ilə hərəkət edirlər [7, s.152].

Cümhuriyyətin qurulmasını böyük sevinclə qarşılayan Cabbarlının “Azərbaycan bayrağına” şeirində də türk fəlsəfəsinin əsas cizgiləri öz əksini tapmışdır. O, bu şeirində üç boyalı-üç mənalı Azərbaycan Türk bayrağının fəlsəfi izahını belə vermişdir:

*Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,*
*Bir türk oğlu olmalı!*
*Yaşıl boya islamlığın sarsılmyan imanı,*
*Ürəklərə dolmalı!*
*Şu al boya azadlığın, təcəddüdün fərmanı,*
*Mədəniyyət bulmalı.*
*Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU!*
*Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,*
*Səhərlərə uçmuşdur.*
*Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,*
*Yurdumuzu qucmuşdur!*

*Allah, əməllərim edib şu bayrağı intiqal,*
*Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!*
*Yürəyində bir dilək var, o da doğru kəsilsin,*
*O gün olsun bir göy bayraq Turan üstə açılsın* [5, s.63-64].

Cabbarlı Azərbaycan Türk bayrağına həsr etdiyi "Sevdiyim" adlı şeirində də türkçülük, Turan idealını önə çəkmişdir. O yazırdı:

*Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.*
*Canalıcı bir görkəmlə dağ başında durunca,*
*Oxşadıqca bahar yeli açıq-dağınıq tellərin.*
*Nazlı əlin umuzunda saçlarına vurduqca,*
*Bir-bir oxşayırsan bütün Turan ellərin.*
*Altaylardan, Altun dağdan doğma sellər bəkləyor*
*Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim* [5, s.63].

O, M.B.Məmmədzadəyə ünvanladığı "Salam" şeirində də turançılıq sevdasını ifadə etmişdir. Cabbarlı yazırdı:

*İntizar gözlərdən Xəzər doğuldu,*
*Həsrət ürəyimiz yanar dağ oldu.*
*Dillərimiz Turan deyə yoruldu*
*Turan ellərinə salam söyləyin* [5, s.64].

Cabbarlı Turana bəslədiyi ümidlərinin yarımçıq qaldığı, üstəlik başlarının üstünü Sovet Rusiyası təhlükəsi aldığı bir dövrdə qələmə aldığı "Yaşamaq" şeiri çox anlamlı, çox dəyərli bir əsərdir. O, türklüyün yenidən bir sınaq qarşısında qaldığını, hər tərəfin düşmənlərlə sarıldığını dərindən dərk edirdi. Belə bir məqamda ölmək əvəzinə yaşamağın, durmaq əvəzinə mücadilə etməyin fəlsəfəsini Cabbarlı belə izah edirdi:

*Neçin, neçin yaşamaq? Ölməmək! Nədir məna?*
*Neçin şu dörd yanı sarmış əzabə bağlanmaq?*
*Neçin əzilmək, üzülmək, iməkləmək bica?*
*Neçin həyatə səbəbsiz dözüb ayaqlanmaq?...*

*Nədir, nədir dirilik yurdu? Qanlı bir ölkə!*
*Degilmi varlıq özü canlı bir yığın kölgə?*
*Ölüm!.. O bir əbədiyyət... görüncə siz uyğu...*
*Nə tatlı şey.. bu əzabə o sən çəkər bəlkə...* [5, s.66].

O hesab edirdi ki, türkün əsas fəlsəfəsi odur ki, ən çətin, ən zor məqamda belə ümidsizliyə qapılıb intihara, ya da köləliyə razı olmur. Cabbarlıya görə, türkün fəlsəfəsində daim mücadilə etmək və zor olanı bacarmaq vardır:

*Xayır, xayır! Yaşamaq! Bir vüsalədək yaşamaq!*
*Deyir, qoşar yürəgim! Onda bir işıqlı xəyal.*
*Bədən bulur yenə qüvvət, itər şu yorğunluq,*
*Nədir əcəb bu ziya?.. İştə şanlı bir ideal* [5, s.66].

Bizcə məhz bu ideal onu Sovetlər Birliyi dövründə də ayaq üstə tutmuş, dövrün şərtləri altında müəyyən qədər beynəlmiləlçiliyə rəğbət bəsləməsinə baxmayaraq, əsasən mədəniyyət və ədəbiyyatda türklük fəlsəfəsindən, türk dünyagörüşündən çıxış etmişdir.

Cabbarlıya görə, hər millətin özünəməxsus xüsusiyyəti vardır ki, bu da hər bir vətəndaşın, xüsusilə mütəfəkkirlərin dünyagörüşündə öz əksini tapmalıdır. Onun fikrincə, türk xalqlarında ortaq olan xüsusiyyətlərdə (igidlik, qorxmazlıq, aman diləyəni əfv etmək, namusluluq, qonaqpərvərlik, yoldaşına xəyanət etməmək və s.) türklük fəlsəfəsi ilə bağlıdır [8, s.158].

**Cabbarlının yaradıcılığında "sovet beynəlmiləlçiliyi"...**

Sovetləşmənin ilk illərdə Cabbarlının əsərlərində yalnız formaca deyil, məzmunca da türklük xüsusiyyətlərinin önə çəkilməsi sovet-rus bolşevikləri tərəfindən birmənalı qarşılanmırdı. Sovet

ideoloqları digər milli aydınlarımız kimi, onu da mahiyyətcə sosializmə uyğun əsərlər yazmağa məcbur edirdilər. Cabbarlı da, onu yalnız formaca deyil, məzmunca da milli ədəbiyyat yaratmaqda ittiham edənlərə cavab olaraq yazırdı: “Klassik ədəbiyyatın nümunələrini tənqidi nöqteyi-nəzərlə isifadə edərək, ədəbi keçmişdən ən yaxşı və ən qiymətli cəhətləri götürərək mən səy edəcəyəm ki, “formaca milli” əsər yaradım. Azərbaycan xalqının nəhəng mübarizəsinin qəhrəmanlığını əks etdirərək, mən geniş əməkçi kütlələrinə yaxın və tanış olan milli formalar axtarıram” [8, s.273].

Etiraf etməliyik ki, doğrudan da ömrünün son illərində Cabbarlı “sovet beynəlmiləlçiliyi”, “sovet kommunizmi” ilə qismən səsləşən, marksizm-leninizm ideyalarına uyğun gələn əsərlər (“Od gəlini”, “Almaz”, “Sevil”, “Yaşar” və b.) də yazmışdır.

Bizcə, onun “Od gəlini” əsəri millilikIə beynəlmiləlçilik arasındakı ziddiyyətlərin, ikiliyin məhsuludur. O, “Od gəlini”ndə Ərəb Xilafətinə qarşı mübarizə aparan Elxanın timsalında Sovet Rusiyasına qarşı dirənişi ifadə etməklə yanaşı, kommunizm elementlərini də əks etdirmişdir. Cabbarlı əsərin qəhrəmanı Elxanın dilindən yazırdı: “Mən insanlığın ümumi və əbədi səadətini bu şəxsiyyət istibdadının (Stalinə pərəstiş – F.Ə.) məzarları üzərində tikmək istəyirəm, anlayırsanmı! Düşündüyüm vuruşda ilk düşmənim ərəb basqınçıları (rus işğalçıları – F.Ə.), ikinci düşmənim bəşəriyyəti salışdıran və gücsüzləri əzdirən dinlər, üçüncü düşmənim isə köləlik törədən bütün indiki ictimai mühit və yaşayış quruluşudur ki, onun da başında sən və sənin kimi insan qəssabları (Kirov, Orconikidze, Mirzoyan, Pankratov və b.) dururlar. Başqa yol yoxdur. Mənim yolum sənə qarşıdır” [7, s.305]. C.Cabbarlı məntiqi olaraq burada, azadlıq və vassallıq tərəfdarı olan iki qardaşı bir-birinə qarşı qoyur. Elxan istiqlalı hər şeydən üstün tutduğu halda, onun qardaşı Aqşin onunla eyni fikirdə deyil.

Ancaq dövrünün şərtləri və sovet ideologiyasının hökmranlığı altında Cabbarlı bu əsərini daha çox istismar edənlərlə (kapitalistlər) istismar olunanlar (fəhlə-kəndlilər) arasında mübarizə kimi qələmə vermişdir. Cabbarlı Elxanın dilindən Aqşinə deyir: “Dünya iki cəbhəyə ayrılmışdır. Bir tərəfdə silahlı güclülər, digər tərəfdə isə əliboş məzlumlar” [7, s.313]. Bu düşüncə ilə əsərin qəhrəmanı Elxan özünü yalnız istiqlalçı deyil, eyni zamanada “kommunist” kimi də aparır; o, bütün dinləri inkar edib, əxlaqa uyğun gəlməyən sərbəst həyatdan və ağılasığmaz azadlıqlardan dəm vurur [7, s.316].

Şübhəsiz, bu məsələdə kifayət qədər ziddiyyətlər vardır. Hər halda türklük fəlsəfəsini dərindən anlayan, onun xüsusiyyətlərini hərtərəfli izah edən Cabbarlının Elxan adlı qəhrəmanının fərqli düşüncələrdən çıxış etməsi təsadüfi ola bilməzdi. O ayrı məsələdir iki, Cabbarlının Elxan obrazı kimi eyniləşdirdiyi Babək və onun tərəfdarlarında (xürrəmilərdə) belə düşüncələrin olmasını vaxtilə ərəb tarixçiləri də iddia ediblər. Burada maraqlı cəhət odur ki, əgər Elxan obrazı istiqlalçıdan çox “kommunist”lə üst-üstə düşürsə, o zaman Cabbarlı əski “kommunist” Elxanın dilindən o dövrün kommunizm “ideal”ını da açıqlamış olur [9, s.751].

Deməli, Cabbarlının “Od gəlini”ndə bir-birinə daban-dabana zidd olan iki: 1) “istiqlalçı”, 2) “kommunist” Elxan var. Bu ikili Elxan həm xalqın milli azadlıq, həm də “fərdi azadlığ”ından yanadır: “Biz hələlik yurdumuzun yüksək dağlarına çəkiləcək, oradan bütün bəşəriyyət üçün örnək ola biləcək bir ölkə düzəldəcəyik. Orada tənasül heç bir qanun altında gizli olmayacaq, əsas: azad könüllərin uyuşması və usanması olacaqdır. İstəyənlər ər-arvad, istəməyənlər bacı-qardaş olacaqlar. Varlı, yoxsul, güclü, gücsüz olmayacaqdır. Bütün ölkə qardaşcasına çalışan, qazanan və bölüşın bir ailə olacaqdır. Orada süni hökumətlər, qanunlar olmayacaqdır. Orada zərərsiz azad istəklər, azad hərəkətlər, həyatın müqəddəs qanunu hökm sürəcəkdir. Orada uydurma dinlər, allahlar olmayacaqdır. Azad vicdanlar, azad sevgilər hər kəsin böyük tanrısı olacaqdır. Məqsəd həyata qovuşacaq, yaşayış ancaq vasitələrlə məşğul olacaqdır” [7, s.303, 325]. Əsərin sonunda da Elxan Yaradanın varlığını inkar etməklə yanaşı, bütün dinlərin də uydurma olduğunu bir daha bəyan edib özünü Tanrı adlandırır və İnsanı ilahiləşdirir [7, s.356].

Azərbaycan Cümhuriyyətinin banisi, filosof-mütəfəkkir Məhəmməd Əmin Rəsulzadəyə görə “Od gəlini” əsərində C.Cabbarlı Ərəb Xilafəti ilə Azərbaycanın mübarizəsini versə də, əslində Sovet Rusiyası ilə Azərbaycan Cümhuriyyətinin savaşını göstərməyə çalışmışdır. O yazırdı: ““Od gəlini”ni Cəfər “Çəka” həbsindən çıxdıqdan sonra yazmışdır. O, vaxtilə istər məmləkətdə, istərsə məmləkət xaricində səs salmış bir hadisəyə görə “müsavatçılar” qrupu ilə birlikdə həbs edilmişdi. Bu əsərdə atəşpərəst Azərbaycanın müsəlman-ərəb istilasına qarşı mübarizəsi təsvir edilir. Yeni sahiblər məmləkətin bütün zənginliklərini çapıb aparırlar. Neft dövlətin malı elan edilir. Ərəbistana daşınır.

Azərbaycanlıları İslam dinini qəbul etməyə məcbur edirlər. Xalq üsyan edir. Gənc Elxan sevgilisinin baş örtüyündən düzəltdiyi bir bayraqla meydana atılır. Müdhiş bir mübarizədən sonra onu tuturlar, əsir edirlər və edamına qərar verirlər. Əlləri arxasında bağlı halda dar ağacının altında onu şəhadət kəlməsini oxumağa məcbur edirlər. O isə “bütün dünya desə də mən deməröm “La ilahə illallah” – deyə hayqırır. Mənzərənin rəmziliyi göz qabağındadır. Tamaşaçılar üçün “ərəb” və “islam” sözləri yerinə “rus” və “kommunizm” qoymaq mənanı aktuallaşdırmaq üçün kifayətdir” [10, s.71].

Rəsulzadə hesab edirdi ki, Cabbarlının ortaya qoyduğu qəhrəmanların, o cümlədən Aydın, Oktay, Elxanın ətrafındakı insanlarda həyəcanlar oyadacaq xüsusiyyətlər vardır. O yazırdı: “Onlar alovlu sözləri, açıq fikirləri və cəsarətli hərəkətləriylə insanları sarsıdaraq arxaları ilə aparırdılar. Fəlakət və səfalətlərə baxmayaraq mübarizəyə gedən bu insanlar anlaşılmaz bir qüvvətlə bu rəhbərlərindən ayrılmırlar. Hətta qəhrəmanlar bunları işin təhlükəliliyi ilə tanış edib təhlükədən uzaqlaşdırmaq istədikləri zaman belə, onlar özlərini gözləyən cəfalara məmnuniyyətlə hazır olduqlarını bildirirlər” [10, s.71].

Bizcə, Cabbarlı “Sevil”, “Almaz”, “Yaşar” və digər əsərlərində milli və dini hisslərdən yavaş-yavaş uzaqlaşaraq “sovet kommunizm”i, ya da “sovet beynəlmiləlçiliyi”ni tərənnüm etmişdir. Belə ki, həmin əsərlərin əsas qəhrəmanları insan üçün heç bir sərhəd, qayda-qanun tanımayan “azadlıq”ları təbliğ edirlər. Məsələn, Cabbarlı “Sevil” pyesində Sevilin və Gülüşün timsalında əsasən milli və dini dəyərlər tanımayan “azad qadın” obrazları yaradarkən çox ifrata varmışdır. Hər halda əsərin qəhrəmanı Sevilin “qadın azadlığ”ını namus məsələsindən çox cinsi və iqtisadi azadlıq kimi dəyərləndirməsi doğru deyildi: “Azərbaycan qadınlarının və bütün qadınların ən böyük düşmənlərindən biri də namus keşikçisi olmalarıdır. Kişi istədiyini və bir neçəsini birdən əldə edə bilər. Qadın isə ikincisinə göz ucuyla belə baxa bilməz. Bu, kişi üçün bir nadinclik, qadın üçün isə bir namussuzluq sayıla bilər. Halbuki hər ikisinin təşəbbüsünü doğuran eyni fizioloji hadisədir” [11, s.45].

İlk baxışda haqlı görünən Sevilin burada unutduğu əsas məsələ nə kişinin, nə də qadının fizioloji tələbatlarına görə, ailə dəyərlərinə zərbə vurmaq haqqının olmamasıdır. Əslində, istər kişi olsun, istərsə də qadın, ilk növbədə, təbii instinktlərinə görə deyil, mümkün olduğu qədər cəmiyyətin qayda-qanunlarına, mentalitetə görə hərəkət etməlidirlər. Əks təqdirdə sosializm (kommunizm), liberalizm, praqmatizm kimi təlimlərini doğru hesab etməklə, nəinki hər hansı milli-dini dünyagörüşlə, insanlıq adına da yaşamaq çox çətin olar. Hər halda Cabbarlının qəhrəmanı Sevil əsərin sonunda deyir ki, o, sosializmdən gəlmişdir və sosializmə də qayıdır [11, s.54]. Deməli, “sovet sosializmi” qadınların başlarından yalnız zorla çadralarını açdırmırdı, eyni zamanda milli və dini dünyagörüşə zidd olub, heç bir əxlaq sərhədi tanımayan “azadlıq”ları da təlqin edirdi.

M.S.Ordubadi “C.Cabbarlı haqqında xatirələrim”də yazırdı ki, həmin dövrdə onun dostlarının sayı artdıqca, köhnə fikirli adamlar içərisindəki düşmənlərinin sayı da artırdı, bu həqiqi vətənpərvəri “millətə və əqidəsinə xain” – deyə səsləyirdilər: “O, yersiz hücumlara yüksək yaradıcılıq silahı ilə cavab verərək böyümüş və Cəfər Cabbarlı olaraq tanınmışdı. Cəfərin düşmənləri arasında sənət və yaradıcılıq rəqibləri də az deyildi” [12].

Çox təəssüf ki, əvvəllər bütün bunların tamamilə əleyhinə olub, hətta Hüseyn Cavidi əsərlərindəki bəzi qəhrəmanları (Cəlal, Göyərçin, Afət, Arif və b.) türklük xüsusiyyətinə yad olan hərəkətlərinə görə tənqid etdiyi halda [7, s.158-164], Cabbarlının özü də “sovet sosializmi”nin, “sovet beynəlmiləlçiliyi”nin təsiri altında milli mentalitetlə çox da səsləşməyən Sevil, Balaş, Gülüş, Almaz və başqa bu kimi obrazlar yaratmışdır. Almaz da inandığı Lenin kommunizminə uyğun olaraq sosialist mədəniyyətdən, yenilikdən bəhs edir; ailə namusundan söz açılarkən “mən azad qadınam” deyir: “Azadlıq mənim haqqımdır. Azadlıq sədəqə deyil. Hamısı mənimdir. Onu çərçivəyə alıb, hər iki saatdan bir çay qaşığı verməyə kimsənin haqqı yoxdur. Mən bütün işlərimdə ya azadam, ya əsir, ya ağayam, ya qul” [11, s.127]. Cabbarlının Sevil qəhrəmanı kimi, Almaz da iddia edir ki, əgər bir xətanı kişi edə bilərsə, qadın da edə bilər. “Mənimçün dünyada kişi-arvad yoxdur. İnsan var: insan hər bir işində azad və sərbəst olmalıdır” deyən [11, s.129] Almaz üçün də milli və dini dəyərlərin əsasən əhəmiyyəti yox idi.

**Nəticə / Conclusion**

Beləliklə, Cabbarlının ictimai-fəlsəfi yaradıcılığı ilə bağlı fikirlərimizi yekunlaşdıraraq deyə bilərik ki, onun dünyagörüşündə müəyyən ziddiyyətlər, iki fərqli baxış olmuşdur. Birincisi, onun dünyagörüşü uzun müddət islamlıq və türklüyün vəhdəti şəklində təzahür etmişdir. Hətta bir ara əsas ideal kimi türk dünyagörüşünə, turançılığa əsaslanan Cabbarlı insan və cəmiyyət problemlərinə yanaşmada da, daha çox Azərbaycan Türk fəlsəfəsindən, müəyyən qədər də islamlıq dünyagörüşündən çıxış etmişdir. Bizcə, sovetləşmənin ilk illərdə də Cabbarlı türk-İslam dünyagörüşündən geri çəkilməmiş, mümkün olduğu qədər onu “sovet beynəlmiləlçiliyi” ilə uzlaşdırmağa çalışmışdır.

Şübhəsiz, onun bu cəhdləri sovet-rus kommunistlərini qətiyyən qane etmirdi ki, çox keçmədən Cabbarlı bu cür psixoloji təzyiqlərin altında formaca milli, məzmunca sosialist əsərlər ortaya qoymuşdur. Əlbəttə, Cabbarlının bu tipli əsərlərində də Azərbaycan Türk cəmiyyəti, onun mədəniyyəti və fəlsəfəsi üçün müəyyən qədər müsbət elementlər var idi. Ancaq bütövlükdə bu əsərlər Cabbarlının türklük/azərbaycançılıq və islamlıqla bağlı düşüncələrinə zidd olmaqla yanaşı, onun dünyagörüşündə də ciddi fərqliliklərə səbəb olurdu. Hər halda onun islamlıq və türklük dünyagörüşündən çıxış edərkən ortaya qoyduğu əsərlərlə, “formaca milli, məzmunca sosialist” ideyasına əsaslanarkən yazdığı əsərlərdə kifayət qədər ziddiyyətlər var idi. Bizcə, Cabbarlının gənc yaşlarında vəfat etməsində də, özünün özünü bu formada inkar etməsi heç də az rol oynamamışdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Arif Məmməd. Seçilmiş əsərləri. II cild, Bakı: Azərb. SSR EA nəşriyyatı, 1968.
2. Şaiq Abdulla. Xatirələrim, Bakı, “Gənclik”, 1973.
3. Yurdsevər Ə.V. Azərbaycan dram ədiblərindən Cəfər Cabbarlı. Ankara: “Azərbaycan” dərgisi, 1952, № 5.
4. Rüstəmli A. Bədii həqiqətlər ustası. //C. Cabbarlı. Əsərləri. Dörd cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005.
5. Cabbarlı C. Əsərləri. Dörd cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005.
6. Qarayev Y. Tarix: yaxından və uzaqdan”, Bakı: Sabah nəşriyyatı, 1996.
7. Cabbarlı C. Əsərləri. Dörd cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005.
8. Cabbarlı C. Əsərləri. Dörd cilddə. IV cild. Bakı: Şərq-Qərb, 2005.
9. Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı: Elm və təhsil, 2020.
10. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991.
11. Cabbarlı C. Əsərləri. Dörd cilddə. III cild. Bakı: Şərq-Qərb, 2005.
12. Ordubadi M.S. C.Cabbarlı haqqında xatirələrim, “Ədəbiyyat qəzeti”. 1943, 31 dekabr.
13. Xəlilov S. Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti. (fəlsəfi etüdlər). Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2001.


## Общественно-политические взгляды Джафара Джаббарлы и философия тюркизма/азербайджанизма

**Фаиг Алекберлы**

**Резюме.** В статье рассматриваются вопросы просвещения, тюркизма/азербайджанизма, исламизма, современности и советского интернационализма в мировоззрении азербайджанского тюркского мыслителя Джафара Джаббарлы. Здесь, в первую очередь, разъясняются вопросы исламизма и тюркизма/азербайджанизма, связанные с общественно-политическими взглядами Дж.Джаббарлы(который в первые дни больше занимался национальным образованием, ратуя за ислам и прогресс нации). В общественно-политических собраниях Джаббарлы одним из главных направлений была философия тюркизма/азербайджанизма,

изучение тюркского мировоззрения. С юных лет он считал важным, наряду с реформами в исламской религии, вопрос национального самосознания тюркских народов, в том числе и кавказских тюрков. Джаббарлы умело подчеркивал, что если нация согласна жить с угнетением, более того, если национальные и нравственные ценности, оставленные ее предками, она понимает как упадок, а не прогресс, то у этой нации не может быть будущего. В этом смысле чувство долга тюркской нации — способствовать возрождению национальных ценностей и доносить их до молодежи в правильной форме. Исходя из этого аспекта Джафар Джаббарлы пытался раскрыть в своих произведениях тюркизм/азербайджанизм не в узком, а в широком смысле как философско-мировоззренческое созерцание. В целом же его мировидение проявляется в форме единства ислама и тюркско-азербайджанства (даже некоторое время Джаббарлы, на основе тюркской философии, опирался на тюркское мировоззрение и туранизм). На наш взгляд, даже в первые годы после советского вторжения, 27 апреля, Джаббарлы не отступал от турецко-исламского мировоззрения и пытался максимально примирить его с «советским интернационализмом», однако акцент Джаббарлы на характерных чертах тюркского характера не только по форме, но и по содержанию не встретил однозначного одобрения советско-российских большевиков. На его труды огромное влияние оказала советизация, пропаганда идей коммунизма, советские идеологи, как и другие национальные интеллигенты, которые заставляли его писать произведения, по сути своей, соответствующие социализму.

**Цель**: проанализировать религиозно-философские, утопические взгляды Джафара Джаббарлы и идеи тюркизма и туранизма.

**Методология**: сравнительный анализ, наследование, передача идей, анализ.

**Результаты исследования**: поиски согласования идей Джафара Джаббарлы с общественно-политическими и идеологическими требованиями современности.

**Ключевые слова:** исламизм, тюркизм, туранизм, азербайджанство, современность, советский интернационализм

## Socio-political views of Jafar Jabbarli and the philosophy of Turkism / Azerbaijanism

**Faig Alakbarli**

**Abstract.** The article discusses the issues of enlightenment, Turkism/Azerbaijanism, Islamism, modernity, and Soviet internationalism in the worldview of Azerbaijani Turkish thinker Jafar Jabbarli. Here, first of all, the issues of Islamism and Turkism/Azerbaijanism related to J. Jabbarli's socio-political views have been explained. For Jabbarli, who was more involved in national education in the early days, Islam and the progress of the nation meant the same thing. In Jabbarli's socio-political views, the philosophy of Turkism/Azerbaijanism, the study of the Turkish worldview was one of the main directions. From a young age, he considered the issue of national self-awareness of the Turkic peoples, including the Caucasian Turks, to be important, in addition to reforming the Islamic religion. Jabbarli very skillfully emphasized that if a nation agrees to live with oppression, moreover, if it understands the national and moral values left by its ancestors as decline and not progress, that nation cannot have a future. In this sense, it is the duty of the Turkish nation to take ownership of its national values and convey them to the youth in the right form. In our opinion, from this point of view, Jafar Jabbarli tried to reveal Turkism/Azerbaijanism in his works not only in a narrow sense, but also as a philosophical-ideological outlook in a broad sense. In general, his worldview has been manifested in the form of the unity of Islam and Turkism/Azerbaijanism for a long time. Even, for a while, Jabbarli, based on the Turkish worldview and Turanism as the main ideal in his approach to human and social problems, proceeded more from the Turkish philosophy, and to some extent from the Islamic worldview. In our opinion, even in the first years after the soviet occupation, Jabbarli did not retreat from the Turkish-Islamic worldview and tried to reconcile it with "Soviet internationalism" as much as possible. In the first years after the April 27 invasion, Jabbarli's works, which emphasized Turkishness not only in form,

but also in content, were not unequivocally welcomed by the Soviet-Russian Bolsheviks. Soviet ideologues, like other national intellectuals, forced him to write works that were essentially socialist.

The goal is to analyze Jafar Jabbarli's religio-philosophical, utopian views and ideas of Turkism and Turanism.

**Methodology** – comparative analysis, succession, transfer of ideas, analysis.

**Scientific innovation** – searching for reconciliations between the ideas of Jafar Jabbarli and the socio-political and ideological requirements of the contemporary era

**Keywords:** Islamism, Turkism, Azerbaijanism, Turanism, Modernity, Soviet internationalism